Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2020, **s. 105-110**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2020, **с. 105-110**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2020, **pp. 105-110**

KULTUROLOGİYA

UOT 37.01

G.H.Əlixanova
psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş.,Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: gulnare.alixanova@mail.ru

SOSİUMUN TƏSİRİ ALTINDA "MƏN" KONSEPSİYASININ İNKİŞAFI

Açar sözlər: *"Mən" obraz; sosiumun təsiri; hərəkətlərin təqlidi; psixososial inkişaf; emosional reaksiya; tanış olmayan adam; intonasiya; kommunikativ fəallıq*

Məqalədə sosiumun təsiri altında "Mən" konsepsiyasının inkişaf xüsusiyyətləri barədə danışılır. Məlumdur ki, uşaq ona sosial bacarıqların mənimsənilməsi və istifadəsində köməklik göstərən yaşlıların əhatəsində böyüyür. Uşaqda "Mən" konsepsiyasının sosiumun təsiri altında inkişaf etməsi yaşlılarla uşağın qarşılıqlı münasibərlərinin sosial xarakteri ilə şərtlənir.

Г.Г.Алиханова

РАЗВИТИЕ «Я» КОНЦЕПЦИИ ПОД ВЛИЯНИЕМ СОЦИУМА

Ключевые слова: *«Я» образ; под влиянием социума; имитация действий; психосоциальное развитие; эмоциональная реакция; незнакомец; интонация; коммуникативная активность*

В статье рассказывается о том, как под влиянием социума происходит развитие концепции "Я". Известно, что ребенок развивается в кругу взрослых людей, которые помогают ему приобрести и использовать свои социальные навыки. Развитие концепции «Я» под влиянием социума обусловлено социальным характером взаимоотношений между взрослым и ребенком.

G.K.Alikhanova

Development of the concept of "I" under the influence of societies

Key words: *"I" image; the effect of society; a copy of the movement; psychosocial development; emotional reactions; people who are not familiar; Intonation; kommunikativ activity*

The article discusses the peculiarities of the development of the concept of "I" under the influence of societies. It is known that a child grows up with an adult who helps him master and use his social skills. The development of the concept of "I" in a child under the influence of sociology is due to the social nature of the relationship between adults and children.

Psixi inkişaf mexanizmi uşaq üçün mühüm olan, onu öz həyatının digər yaş dövrlərində də əhatə edən və gerçəklikdə mövcud olan konkret sosial formadır. O, bütünlüklə uşağın inkişafının yeni psixi xüsusiyyət və keyfiyyət qazanılan formalarını və yollarını, eləcə də fəaliyyət növlərini aydınlaşdırır.

Hər bir yaş dövrü sosiumun təsiri ilə inkişaf situasiyasının spesifikliyində, yeganəliyində və təkrar olunmazlığında xarakterizə edilir. Biz yalnız sosial inkişaf situasiyasını qiymətləndirdikdən sonra uşağın yaş inkişafının nəticəsi olan bu və ya digər psixoloji yenitörəmələrin nə cür təzahür və inkişaf etdiyini aydınlaşdıra bilərik. Aparıcı fəaliyyət növü də yalnız sosial situasiyanın inkişafı dairəsində təzahür və inkişaf edir.

Dünyaya gəldiyi ilk aylardan uşaq ətraf mühitlə əlaqə qurmağa çalışır. O, ətraf aləmdə nə varsa, hamısına maraq göstərir. Birinci aylığın sonunda körpənin yaşlılarla ünsiyyəti situativ – şəxsi xarakter daşıyır. A.Leontyevin fikrincə, bu onunla əlaqədardır ki, uşaq öz inkişafının bu dövründə hər şeydən əvvəl, yaşlılarla ünsiyyətinə özünün ən zəruri ehtiyaclarını ödəmək üçün ehtiyac duyur. Ona görə də körpə mövcud situasiya yerinə emosional münasibətini ifadə edərək, hər bir şeydə öz fəallığını nümayiş etdirməyə səy göstərir.

A.Reana görə, körpə 3 ayınadək yaşlıların ona yalnız müsbət müraciətlərinə reaksiya verir və heç cür intonasion – mimik ifadəli mənfi fikrə və ya məzəmmətə cavab vermir. Psixoloqların rəyinə görə, körpə asılı olduğu insanlardan gələn neqativ psixoloji təsirlərdən reflektor müdafiəyə malikdir. Bu faktoru bütünlüklə, yaşlı insan şəxsiyyətinə xas olan şüurlu və şüursuz müdafiələrin saysız-hesabsız sayının təmsilçisi kimi təsəvvürə gətirmək olar.

A.Bine, İ.Piaje və başqaları uşağın emosional mühitinin inkişafını onun ətraf aləmlə əlaqəsində mühüm amil hesab edirlər. Onlara görə, canlanma kompleksinin təzahürü yeni doğulmuş böhranının bitməsini və sosial emosiyaların inkişafının başlanğıcını göstərir. Uşağın inkişafının ən erkən mərhələsində "Mən" konsepsiya-sının sosiumun təsiri ilə formalaşması yaşlı ilə ünsiyyətin təsiri altında baş verir. Uşaq bu yaş dövründə yaşlının ona münasibətinin çalarlarını həssaslıqla ayırd etməyə qadirdir, lakin o hələ bir adamı digərindən ayırmağı bacarmır. Bununla belə, onun artıq bu yaşda yaşlının laqeydliyini neqativ qəbul etməsi xarakterikdir (6, 89).

Bu yönümdə aparılmış tədqiqatların nəticələrinə görə, uşaq artıq həyatının

ilk birinci yarımiliyində öz valideynlərinin hərəkətlərinin təqlidinə qadirdir. O, başını tərpədir, ağzını açır və bağlayır, hətta valideynlərinin mimikasına cavab olaraq dilini göstərir. Körpənin hərəkətlərinin təqlidedici xarakter daşımasına baxmayaraq, onları heç kimin təsiri və ya xahişi olmadan sərbəst yerinə yetirir. Bunu da sözsüz olaraq uşaqda "Mən" obrazının yaranmasının təzahürü saymaq olar. Bundan başqa, körpə hər hansı bir hərəkəti və ya fəaliyyəti yerinə yetirərkən, yaşlıların reaksiyasını müşahidə edir, bununla da hansı hərəkətin yol verilən, hansının isə tənə ilə qəbil edildiyini dərk edir. Uşaq bu cür ətrafdakılara təsir etmək təcrübəsini əldə edir: o, yaşlıların onun hərəkətlərini nə cür qiymətləndirdiklərini öyrənir, ondan nəyi gözlədiklərini başa düşməyə başlayır, yaşlılarla özünü necə aparmaq lazım olduğunu öyrənmək üçün kifayət qədər səy göstərir (2,14).

6 aylıqdan sonra öz "Mən"ini anlama körpənin ümumi psixososial inkişaf məcrasından qaynaqlanır. Əgər insan münasibətləri sistemində ən əhəmiyyətli psixososial tərkiblərdən biri olan yaxınların bağlılığını - özünüdərkin təzahürü vasitəsi kimi nəzərdən keçirsək görərik ki, özünüdərk ilkin olaraq uşaqda emosional – duyğu səviyyəsində özünü bu cür təzahür edir: "Mən, sevimliyəm", "Mən, arzu olunanam", "Mən, öz yaxınlarıma bağlıyam". Beləliklə, uşaq öz "Mən"ini yaşlıların qəbul etdiyi və müəyyənləşdirdiyi kimi hiss edir, yəni körpənin "Mən" konsepsiyası valideyn konsepsiyasının daxilinə "yerləşdirilmişdir" və onun içərisindən doğulur.

Psixososial inkişaf, insan psixikasının təbii imkanlarının, onun həyatının ictimai şəraitində cəmiyyətin yaratdığı vasitələrin köməyi ilə, dərkin və özünüdərkin onu əhatə edən mühitin qarşılıqlı təsiri prosesində öyrənmə və tərbiyənin qarşılıqlı təsirinin sosial vasitələrinin (ünsiyyətin verbal və qeyri-verbal vasitələri ilə) mənimsənilməsi prosesi ilə şərtlənir.

Psixoloji inkişaf sahəsində məşhur mütəxəssis olan Q.Krayqın şərhlərinə əsasən, "bağlılıq" anlayışı güclü qarşılıqlı asılılıqla xarakterizə edilən münasibət-lərin, iki tətəfli hisslərlə parlaq ifadə olunan və həyati əhəmiyyətli emosional əlaqələrin mənasını bildirir (3, 287). Deməli, 6 aylıqdan uşaq artıq ətrafdakılara hər hansı bir konkret situasiyaya öz reaksiyasını vaxtında və aydın ifadə etməyə qadirdir. İndi uşaq artıq nə istədiyini bilir, əgər situasiya onun xoşuna gəlmirsə və ya onun gözləmələrinə cavab vermirsə, o təmin olunmadığına görə diskomfortluq hiss edirsə, qəzəblənir və situasiyanın dəyişilməsini tələb edərək gözləyir və ağlamaqla valideynlərini bundan agah edir. Əgər uşaq nədənsə razıdırsa, hər şey onun xoşuna gəlirsə, situasiya ona arzu etdiyini və xoşhallıq gətirirsə, o zaman körpə gülümsəməklə bu xoş fəaliyyəti barədə ətrafdakıları məlumatlandırmağa tələsir.

Uşaq 3 ayından başlayaraq və təxminən birinci ilinin sonunadək ona tanış olan və tanış olmayan adamları fərqləndirməyə başlayır. Uşağın yaxşı tanıdığı yaxın adamı sevincli təbəssümü və ya sadəcə canlanması ilə salamlayır.

Tanımadığı adamı da o, sevincli təbəssümlə qarşılaya bilər, lakin onun ifadə dərəcəsi hiss olunacaq dərəcədə zəif olacaqdır. Bir çox şeylər isə uşağın ətraf aləmi ümumi emosional qavramasından və onu əhatə edən insanlardan asılıdır. Məsələn, o şən adamdırmı, gündəlik həyatda fəaldırmı və ya onun davranışı ətrafında baş verənlərə qarşı yüksək dərəcədə laqeydlik və arxayınçılıq xarakterizə edirmi və sairə (4, 57).

Uşağın həyatının ikinci ilində onda yaxın adamlarına qarşı dayanıqlı mövqe yaranır və paralel olaraq tanımadığı insanlara qarşı isə mənfi münasibət təzahür edir. Uşaq artıq 7-8 aylığında yaşlılar tərəfindən ona qarşı olan müxtəlif reaksiyaların təhlilini apararaq, ətrafındakılardan kimin onunla əlaqəli olduğunu və həmin adamın ona nə cür münasibət bəsləməsi haqda nəticə çıxmağa çalışır. Bu zaman uşağın qavrayış dairəsində təzahür edən "yad adamlar" heç bir çətinlik olmadan yaxın adamlardan və valideynlərindən fərqləndirilərək uşaq tərəfindən yüksək ehtiyatlılıqla qəbul edilir.

Ehtimal etmək olar ki, tanış olmayan adamlara qarşı olan bu cür münasibət sadəcə onlardan "qaçma reaksiyası" deyildir, bu uşağın özünəməxsus apardığı "eksperimentin" nəticəsidir. Bunun sayəsində uşaq "yad yaşlıların" ona olan həqiqi münasibəti haqda öyrənməyə imkan qazanır. Bu zaman uşaq yaxınlarının emosional reaksiyası ilə "yad" adama tərəf baxır. Məlumdur ki, uşaq üçün anasının sözü daha "nüfuzlu" təsirə malikdir. Əgər ana həmin yad adama gülümsəyirsə, onun səsi mehriban, qayğıkeş və sakitdirsə, o zaman uşaq tədricən bu insanı "qəbul" edərək daha inamlı surətdə öz baxışlarını onun tərəfinə yönəldəcəkdir.

A.A.Kona görə, uşağın nitqində "Mən" obrazının xüsusiyyətlərinin təzahürü onun anlaşılmaz danışığa başladığı zaman saxta sözlər axını ilə başlayır. Yaşlılarla körpənin bu emosional-motivasion ünsiyyət vasitəsi körpənin həyatının təxminən 11 aylığında özünü büruzə verməyə başlayır (5,88).

Uşağın həyatının birinci ilinin ikinci yarısında uşaqda özünəməxsus nitq fəaliyyəti formalaşmağa başlayır. Bu zaman uşaq onu əhatə edən insanlara öz münasibətini ifadə etməyə çalışır, yaşlıların ona yönəldilmiş nitqlərinə qavrayışının seçiciliyini açıq-aydın nümayiş etdirir. Bu uşağın ilkin tələffüz etdiyi sözlərdə ifadə olunur. Lakin uşağın "Mən"inin mahiyyəti xeyli əvvəl, hələ onun həyatının ilk birinci ayında başlayır. Onun təzahürünü uşaq çığırtısının, özünün akustik tərkibinə görə yaşlı insanın narazılıq intonasiyasına bənzəyən müəyyən intonasiya strukturunda aydın görmək olar. Hələ körpə yaşlarında uşaqda tədricən ünsiyyət vasitələrinin formalaşması baş verir, kommunikativ fəallığın müəyyən struktura malik olan ilkin formaları cəmlənir.

Həyatın ikinci yarımilliyində uşağın ətrafdakılarla ünsiyyətində özünü təzahür fəallığı artır. Uşaqda ətrafdakıların ünvanına əl – qol hərəkətləri güclənir, səs və emosional reaksiyalar mürəkkəbləşərək differensiallaşır.

Beləliklə, uşaq 7 - 12 aylığında özünü ünsiyyət obyekti kimi "elan" edir. Uşaq danışmağı öyrənərkən öz adını ətrafdakılara özünün tələbatları, arzu və hissləri haqda məlumat vermək üçün tələffüz edir. Özünüdərk özünü xarakterizədə təzahür edir. Bundan başqa özünü və başqalarını sözlə qiymətləndirmə konkret situasiyaya müvafiq olaraq və ünsiyyət üzrə mövcud tərəf müqabilini gözləməsilə həyata keçirilir.

Psixoloji pedaqoji ədəbiyyatın araşdırılmasından məlum olur ki, uşaqda həyaının birinci ilində özünə qarşı kifayət qədər özünəməxsus münasibət təşəkkül edir. Bu özünəməxsus münasibət yaşlıların sevgi və qayğılı ünsiyyəti nəticəsində yaranır. Bunun da nəticəsində uşaqda onun özünün başqaları üçün əhəmiyyətli olması kimi hisslər formalaşır. Bu faktorlar körpənin ümumi özünüqiymətləndirmə-sinin inkişafına birbaşa öz təsirini göstərir. Lakin həyatın birinci ilində uşağın şəxsi təcrübəsinin "Mən" obrazının inkişafında rolu əhəmiyyətsizdir.

Məşhur müasir cinsi fərqlər psixologiyasının mükəmməl tədqiqatçısı İ.Kona görə, uşağın şəxsi "Mən" ində dərk etdiyi ən ilkin kateqoriya onun cinsi aidiyyətidir" Lakin bütün körpəlik və erkən uşaqlıq boyu onun yaşlılarla ünsiyyəti, eyni zamanda özünün cinsi mənsubiyyətini dərk etməsinə olan münasibəti "Mən" – konsepsiyasının formalaşmasının əsas faktoru kimi qalmaqda davam edir. Sonralar özünü müəyyən cinsin adamı kimi koqnitiv – emosional dərki artıq müvafiq cəmiyyət və mədəniyyətin norma və adətləri ilə şərtlənir.

Uşaq 2 yaşa yaxın öz cinsini bilir, lakin hələ bu mənsubiyyətliliyi əsaslandıra bilmir. Özünü oğlan və ya qız kimi müəyyənləşdirən körpə bunu özünün bioloji əlamətləri ilə əlaqələndirmir. Sonralar uşaqda ontogenezi, cinsi sosiallaşmanı və özünüdərkin inkişafını birləşdirən, mürəkkəb biososial prosesin nəticəsi kimi əsl cinsi identifikasiya əmələ gəlir.

Uşaqda, "Mən"- konsepsiyasının formalaşması onun inkişafının ən erkən mərhələsində yaşlılarla ünsiyyətinin təsiri altında baş verir. A.Zaparojetsin daxil etdiyi məlumata əsasən, "funksional inkişaf" anlayışını (yaş inkişafı ilə əlaqədə), uşağın "Mən" obrazının funksiyaları və ayrı-ayrı tərkiblərinin dəyişilməsini, "Mən" – konsepsiyasının körpəlik mərhələsində (eləcə də digərlərində) "funksional inkişaf" mərhələsini keçdiyini nəzərdə tutduğunu hesab etmək olar. Körpələr doğulduqları andan və iki ay sonra da özlərini ətraf aləmdən ayıra bilmirlər. Lakin tədricən onlar başa düşməyə başlayırlar ki, onlar insan nəslində ayrı və yeganə məxluqdurlar. Körpəliyin əhəmiyyətli hissəsi bu açılışın dərkinə həsr edilir.

Beləliklə, uşaqlarda sosiumun təsiri altında "Mən" konsepsiyasının inkişaf etməsi yaşlılarla uşağın qarşılıqlı münasibərlərində yaranan nizamlı sistemlə və inkişaf situasiyasının sosial xarakteri ilə şərtlənir. Uşaqda öz "mən"ini dərketmənin təzahürü və formalaşması onun ətrafdakılarla fəal

qarşılıqlı təsiri nəticəsində baş verir. Bununla əlaqədar olaraq yaşlılar nəzərlərində saxlamalıdırlar ki, onların uşağa hər cür fəal özünü ifadəsinə imkan yaratmaq, öna öz arzularını və öz fəaliyyətni təqdim etməsinə köməklik göstərmək lazımdır.

Məqalənin aktuallığı sosiumun təsiri altında uşaqlarda "Mən" konsepsiyasının inkişaf etməsinə dair düzgün iş formalarının və istiqamətlərinin araşdırılıb seçilməsi ilə bağlıdır.

Məqalənin elmi yeniliyi sosiumun təsiri altında uşaqlarda "Mən" konsepsiyasının inkişaf etməsinə yeni tərzdə yanaşmanın bir məqsəd kimi qarşıya qoyulması amilinə xüsusi diqqət yetirilməsindən ibarətdir.

Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilərlər.

ƏDƏBİYYAT

1. Əliyev R.İ. Psixologiya. Bakı, 2003
2. N.S.Çələbiyev. Uşaq psixologiyası. Bakı, 2005
3. Дубровина И.В. Семья и социализация ребенка // Мир психологии. 1998, №1
4. Кон И.С. Проблема «Я» в психологии // Хрестоматия по социальной психологии личности. Самара, 2007.
5. Реан А.А. Психология детства. СПб., 2008

Məqalənin redaksiyaya daxil olma tarixi: 22.05.2020
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.06.2020
Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2020
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.